

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 209 (21.361)

27 oktyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin bu əlaqələrin inkişafı istiqamətində yeni addım olacağına və əməkdaşlıqla bağlı imkanların araşdırılması baxımından yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı deyib ki, ölkəmizin dostu olan Akira Amarinin Yaponiya-Azərbaycan parlamentlərarası dostluq qrupuna rəhbərlik etməsi və Azərbaycanda gedən işlərlə yaxından tanış olması önəmlidir. Prezident İlham Əliyev nümayəndə heyətinin tərkibində böyük şirkətləri təmsil edən iş adamlarının olmasını da məmnunluqla qeyd edib.

İqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə nazir, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amari Prezident İlham Əliyev ilə sonuncu dəfə 2006-cı ilin martında dövlətimizin başçısının Yaponiyaya səfəri zamanı görüşdüyünü məmnunluqla xatırlayıb. O, Yaponiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri kimi özünün ölkəmizə 11 il əvvəl səfər etdiyini və ötən dövr ərzində sanki yeni bir şəhərə düşdüyünü vurğulayıb, bütün bu nailiyyətləri Prezident İlham Əliyevin uğurlu rəhbərliyinin nəticəsi kimi dəyərləndirib.

## Sədərək Rayon Uşaq Musiqi Məktəbinin yeni binası istifadəyə verilmişdir



Sərhəd yaşayış məntəqəsi olan Sədərək rayonu son illər inkişaf edərək müasir görkəm almışdır. Rayonda insanların məskunlaşması, rahat yaşaması üçün bütün tədbirlər görülmüş, yeni iş yerləri açılmış, rayon mərkəzi Heydərabad qəsəbəsi və kəndləri quruculuq meydanına çevrilmişdir. Sərhədləri etibarlı müdafiə olunan Sədərək rayonunda bu gün intellektli, təhsilli və vətənpərvər gənc nəsil yetişdirilir. İstedadı və qabiliyyəti olan gənclər üçün bütün imkanlar yaradılır, məktəb binaları, musiqi məktəbləri tikilib istifadəyə verilir.

Oktyabrın 26-da Sədərək Rayon Uşaq Musiqi Məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, muxtar respublikada mədəniyyətin və incəsənətin inkişafı diqqət mərkəzində saxlanılır. Hər il yeni mədəniyyət müəssisələri, muzeylər, kitabxanalar, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri tikilərək istifadəyə verilir. Sədərək Rayon Uşaq Musiqi Məktəbi üçün yeni binanın istifadəyə verilməsi də bu sahədə görülən işlərin daha bir ifadəsidir. Yaradılan şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri ölkəmizdə keçirilən müsabiqələrdə uğurla iştirak edirlər. Natəvan Qədimova muxtar respublikada mədəniyyətin və incəsənətin inkişafına göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək Rayon Uşaq Musiqi Məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Sədərək Rayon Uşaq Musiqi Məktəbinin əsası 1987-ci ildə qoyulmuş, həmin vaxt Sədərək kənd Uşaq Musiqi Məktəbi yaradılmışdır. 1991-ci ildən isə musiqi məktəbi Sədərək Rayon Uşaq Musiqi Məktəbi kimi fəaliyyət göstərir. Hazırda musiqi məktəbində 144 şagird təhsil alır. Perspektiv nəzərə alınmaqla 320 yerlik yeni məktəb binasının tikilməsi gələcəkdə də musiqi duyumu və qabiliyyəti olan uşaqların məktəbə cəlb edilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə gənclərin hərtərəfli inkişafı diqqət mərkəzində saxlanılır, bu sahədə lazımi tədbirlər görülür. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən yeni məktəb binaları tikilir, musiqi məktəbləri yaradılır, istedadlı uşaqların adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılır. Muxtar respublikada da uşaqların asudə vaxtlarının səmərəli təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, məktəbdənkənar təhsil müəssisələrində, musiqi, idman və peşə məktəblərində uşaqların qabiliyyətlərini nümayiş etdirmələri üçün lazımi şərait yaradılır.

"Uşaq və gənclərin asudə vaxtının səmərəli təşkili, qabiliyyətlərinin istedada çevrilməsi üçün, ilk növbədə, şərait olmalıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, musiqi məktəblərinin yaradılmasında əsas məqsəd də uşaqların asudə vaxtının səmərəli təşkilindən, musiqi duyumu və qabiliyyəti olan uşaqların üzə çıxarılmasından, milli musiqimizin gələcək nəsillərə çatdırılmasından ibarətdir. Bu gün Sədərək Rayon Uşaq Musiqi Məktəbinin müəllim və şagirdləri yaradılan şəraitdən düzgün istifadə etməli, ölkəmizin musiqi mədəniyyətinin inkişafına öz töhfələrini verməlidirlər. Musiqi məktəblərində milli musiqimizin şagirdlərə hərtərəfli öyrədilməsi imkan verəcəkdir ki, onlar gələcəkdə musiqi mədəniyyətimizin, milli dəyərlərimizin daşıyıcılarına çevrilsinlər. Ona görə də musiqi məktəblərində təhsil alan şagirdlərə gələcəyin qurucusu, milli dəyərlərimizin, mədəniyyətimizin daşıyıcısı kimi baxılmalıdır. Hər bir şagirdlə fərdi qaydada məşğul olunmalı, istedadı olan gənclər üzə çıxarılmalı və adları Naxçıvan Muxtar Respublikasının gənc istedadlarının "Qızıl kitabı"na yazılmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında musiqi məktəbinin kollektivinə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Sədərək rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan şagirdlərə kompüterlər hədiyyə etmiş, binanın açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət olan binada 35 sinif otağı, müəllimlər və iş otaqları, kitabxana, zal və bufet vardır. Məktəbdə xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər şöbələri fəaliyyət göstərir, tar, kamança, nağara, fortepiano, klarnet, qarmon və vokal ixtisasları üzrə musiqiçi kadrları hazırlanır. Həmçinin məktəbdə skripka ixtisasının tədris olunması da nəzərdə tutulmuşdur.

Kitabxananın fondunda 200 tədris vəsaiti və musiqi ədəbiyyatı vardır. Azərbaycan musiqi sənətinə aid dərsliklər, görkəmli bəstəkarlarımız və dünya klassikləri haqqında ədəbiyyatlar, o cümlədən digər tədris vəsaitləri şagirdlərin musiqi təliminin nəzəri əsaslarına dərindən yiyələnməsinə şərait yaradır.

Ali Məclisin Sədri kitabxana fondunun milli musiqi nəzəriyyəsinə aid ədəbiyyatlarla zənginləşdirilməsi barədə tapşırıq vermişdir.

Sinif otaqlarında müvafiq ixtisaslara aid musiqi alətləri, o cümlədən 6 pianino qoyulmuşdur. Güclü maddi-texniki baza tədrisin səmərəli təşkilinə, uşaqların incəsənətin bu növünə marağının artırılmasına və musiqiçi kadrların hazırlanmasına imkan verəcəkdir.





Ardı 2-ci səhifədə

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Hər bir xalqın qədimliyi, kimliyi həm də onun milli musiqisində yaşayır. Azərbaycan xalqının min illər ərzində formalaşan qədim musiqi mədəniyyəti vardır. Muğamlarımız, aşıq sənəti, yallılarımız milli musiqimizin tarixindən xəbər verir. "Gəmiqaya" abidələrindəki təsvirlər xalqımızın qədim sənətkarlıq mədəniyyətinin izlərini yaşadırsa, yallılarımız isə min illər ərzində formalaşan milli musiqi sənətimiz haqqında məlumat verir. Bu gün musiqi məktəblərində tədrisin nümunəvi təşkili milli musiqimizin şagirdlərə hərtərəfli öyrədilməsindən başlayır. Pedaqoji kollektiv tədris zamanı milli musiqi mədəniyyətimizin təbliğini üstün istiqamət kimi götürməli, muğamlarımız, aşıq sənəti, yallı və xalq mahnılarımız şagirdlərə ətraflı öyrədilməlidir.

Müəllimlərdən Samirə Əliyeva musiqi məktəbində yaradılan hərtərəfli tədris şəraitinə görə pedaqoji kollektiv adından minnətdarlıq etmiş, bundan sonra da istedadlı və bacarıqlı musiqiçi kadrların hazırlanması sahəsində səylə çalışacaqlarını bildirmişdir.

Konsert zalında Sədərək Rayon Uşaq Musiqi Məktəbinin şagirdləri maraqlı musiqi nömrələri təqdim etmişlər.

Ali Məclisin Sədri məktəbin şagirdləri ilə xatirə şəkli çəkdirmişdir.

Binanın həyətində də geniş abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu öz işinə başlamışdır

*Oktyabrın 26-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə iki gün davam edəcək "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu öz işinə başlamışdır.*



Simpozium iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucaldılan abidəsini ziyarət etmişlər.

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə tanış olan simpozium iştirakçılarına muzey barədə ətraflı məlumat verilmişdir.

Sonra simpozium iştirakçıları AMEA Naxçıvan Bölməsində "Naxçıvanda Dədə Qorqud" adlı sərgiyə baxmışlar.

Daha sonra "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu öz işinə başlamışdır.

Simpoziumu giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov simpozium iştirakçılarını salamlayaraq bildirmişdir ki, bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə təsdiq etdiyi "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq, "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu öz işinə başlayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu Himayəçilik Şurasının təşkilatçılığı ilə keçirilən simpoziumda Azərbaycanın nüfuzlu alim və tədqiqatçıları, Türkiyə və İran İslam Respublikasının ali təhsil müəssisələrinin nümayəndələri iştirak edirlər. Bu isə beynəlxalq elmi simpoziumun səmərəli keçəcəyinə əsas verir.

Qeyd olunmuşdur ki, "Kitabi-Dədə Qorqud" irsinin araşdırılması, Naxçıvanla bağlılığı və yaşadılması istiqamətində muxtar respublikada mühüm işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində "Dədə Qorqud meydanı"nın salınması haqqında" 9 mart 1999-cu il tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsi ucaldılmış və Dədə Qorqud meydanı yaradılmış, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə bağlı elmi konfrans keçirilmiş, tədqiqatlar aparılmış, kitablar nəşr olunmuşdur.

Vurğulanmışdır ki, bu işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə təsdiq etdiyi Tədbirlər Planına əsasən, "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı" mövzusunda açıq dərslər keçilmiş, dəyirmi masalar təşkil edilmiş, "Kitabi-Dədə Qorqud" və Naxçıvan" televiziya filmi hazırlanmışdır. Bununla yanaşı, "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyasının təkmilləşdirilmiş ikinci nəşri hazırlanmış, Dədə Qorqud boylarındakı süjet və qəhrəmanların rəsm və əl işlərində yaşadılmasına diqqət artırılmışdır.

"Ali Məclis Sədrinin "Kitabi-Dədə Qorqud" irsinin yaşadılması sahəsində gördüyü işlər, bütövlükdə, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə ehtiramın ifadəsidir", – deyən Rəhman Məmmədov bildirmişdir ki, bu gün öz işinə başlayan "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu "Kitabi-Dədə Qorqud"un Naxçıvanla bağlılığının daha dərindən araşdırılması baxımından mühüm elmi əhəmiyyət daşıyır. Aparılan araşdırmalar, tarixi və coğrafi dəlillər sübut edir ki, "Kitabi-Dədə Qorqud" dastanında təsvir edilən bir sıra tarixi hadisələr məhz Naxçıvan ərazisində baş vermişdir. Buna görə də muxtar respublikada "Kitabi-Dədə Qorqud"la bağlı çoxsaylı yer-yurd adları mövcuddur. Dastanda adıçəkilən Naxçıvan şəhərindəki Qaraçuq kəndi, Şərur rayonundakı Dana qalası, Dana sazı, Əyrək və Oğuzdaşı kəndləri, Qazan bağı, Sarı ağıl, Xan bulağı, Şərur düzü, Babək rayonundakı Ağ qaya, Altuntaxt, Dərəşam, Dərəşam suyu, Günortac, Sarı bulaq, Xan yurdu, Ordubad rayonundakı Qazangöl, Qazangöl dağı, Qazangöl aşırımı, Qazanköç, Göygöl, Culfa rayonundakı Qazançı, Qazançı qalası, Qara dərə, Əlincə qalası, Əlincə dağı, Əlincəçay, Kəngərli rayonundakı Buğaçeşmə, Şahbuz rayonundakı Qaradağ, Köksü gözəl, Sədərək rayonundakı Qara çoban düzü, Sədərək kəndi, Sədərək düzü yer adları "Kitabi-Dədə Qorqud" boylarındakı hadisələrin, əsasən, Naxçıvan ərazisində cərəyan etdiyini göstərir.

Diqqətə çatdırılmışdır ki, dastanın Salur Qazanın evinin yağmalandığı, Basatın Təpəgözü öldürdüyü, Uşun Qoca oğlu Səkrək, Dirsə xan oğlu Buğac xan, Baybörənin oğlu Bamsı Beyrək, Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu, Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi, İç Oğuza Dış Oğuzun dönük çıxması və Beyrəyin öldüyü boylarında baş verən hadisələr Naxçıvanda cərəyan etmişdir. Naxçıvanda "Kitabi-Dədə Qorqud" boyları və onlardakı süjetlərlə əlaqədar olaraq 50-dən artıq toponim müəyyənləşdirilmişdir. Aparılan tədqiqatlar sübut edir ki, bu toponimlərin sayı daha çoxdur və onların bir qrupunu adları birbaşa dastanda göstərilən coğrafi obyektlər, digər qrupunu isə dastanın qəhrəmanlarının və Oğuz tayfalarının adlarından yaranan toponimlər təşkil edir. Bu toponimlər tarixin inkaredilməz, danılmaz şahidləridir. Onların ətraflı və dərindən öyrənilməsi, yerləşdiyi ərazinin tarixi-coğrafi xüsusiyyətlərinin dəqiqləşdirilməsi Naxçıvanı və bir sıra türk torpaqlarını özlərinin "qədim torpaqları" hesab edən, özlərinə uydurma tarix düzəldənlərə ən kəskin və layiqli cavabdır.

"Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumunun qeyd olunan istiqamətlərdə fəaliyyətə öz töhfəsini verəcəyinə inandığını bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov simpozium iştirakçılarına uğurlar arzulamışdır.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Dədə Qorqud" ideyaları və müasirlik", AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Muxtar İmanovun "Dədə Qorqud" və Naxçıvan folkloru", Türkiyənin İğdır Universitetinin professoru Turqut Öcalın "Kitabi-Dədə Qorqud" dastanlarında islami dəyərlər", İran İslam Respublikasının Təbriz Universitetinin professoru İbad Məmizadə Ağdaşlının "İranda Dədə Qorqudun tədqiqi və nəşri məsələləri", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasınının üzvü, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Kitabi-Dədə Qorqud" dastanları və onun Naxçıvanla bağlılığı" mövzularında məruzələri dinlənilmişdir.

Çıxışlarda bildirilmişdir ki, Azərbaycan Oğuz türklərinin yaratdığı "Kitabi-Dədə Qorqud" dastanları dünya ədəbiyyatında özünəməxsus yer tutur. Xalqımızın həyatını, məişətini, adət və ənənələrini özündə əks etdirən, Türk dünyasının qədim mədəniyyət abidələrindən, bədii və fəlsəfi təfəkkürümüzün ən nadir incilərindən sayılan "Kitabi-Dədə Qorqud" dastanlarının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan görkəmli dövlət xadimi Heydər Əliyev onun tədqiqi və təbliği istiqamətində tarixi addımlar atmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci ildə imzaladığı Sərəncam mahiyyət etibarilə bu böyük abidənin dünya mədəniyyəti hadisəsi səviyyəsində dəyərləndirilməsi istiqamətinin daha da inkişafına uğurla xidmət edən ardıcıl dövlət siyasətinin məntiqi davamıdır.

Çıxış edənlər "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi ilə əlaqədar tarixi Sərəncam imzaladığına və həmin Sərəncamın Naxçıvan Muxtar Respublikasında yerinə yetirilməsi ilə bağlı Tədbirlər Planını təsdiq etdiyinə, beynəlxalq elmi simpoziumun keçirilməsinə dəstək verdiyinə və himayə etdiyinə görə ölkə Prezidenti cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova simpozium iştirakçıları adından minnətdarlıqlarını bildirmişlər.

Simpozium öz işini bölmə iclasları ilə davam etdirir.

## Hüseyn Cavid Poeziya Günü münasibətilə tədbir keçirilib

*Hüseyn Cavidin yenidən xalqımıza və ədəbiyyatımıza qaytarılmasında ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Məhz 1982-ci ildə ulu öndərin təşəbbüsü və qətiyyəti nəticəsində onun məzarı sürgün olunduğu Rusiyanın İrkutsk vilayətindən doğulub boya-başa çatdığı Naxçıvana köçürülüb.*

Bu fikirlər Hüseyn Cavid Poeziya Günü münasibətilə oktyabrın 24-də Naxçıvan şəhərində keçirilən tədbirdə səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə şairin məqbərəsini ziyarət ediblər.

Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev-muzeyində davam etdirilən tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən, hər il oktyabr ayının 24-ü Naxçıvan Muxtar Respublikasında Hüseyn Cavid Poeziya Günü kimi qeyd olunur. Bu, artıq ənənə halını alıb, görkəmli ədibin zəngin və möhtəşəm yaradıcılığını ədəbi-nəzəri fikrin diqqət mərkəzinə çəkməklə əsl poeziya bayramına çevrilib.

Ali Məclis Sədrinin sərəncamına əsasən keçirilən poeziya gününün Hüseyn Cavid irsinin öyrənilməsi və yaşadılması, xüsusən də gənclərin Azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyəsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirən Rəhman Məmmədov deyib ki, Hüseyn Cavid pedaqoq və mütəfəkkir kimi daim



Azərbaycan xalqının gələcəyini düşünüb, maarifi, mədəni dirçəlişi diqqət mərkəzində saxlayıb. Bütün həyatını bu yüksək amala həsr etmiş görkəmli ədibin bir arzusu var idi: öz doğma xalqını azad və xoşbəxt görmək, ana vətənə xidmət etmək.

Ədibin 130 illik yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Hüseyn Cavid nə yazmışsa, Azərbaycan üçün, Azərbaycan oxucusu üçün, Azərbaycan xalqı üçün yazmışdır. Millilik, vətənçilik, Azərbaycançılıq onun yaradıcılığının ruhunda və qanındadır. Cavidin şeir dili təmiz Azərbaycan – türk dilidir. Hüseyn Cavid əsərlərinin mövzusunun və qəhrəmanının hansı dövrü və ya hansı mühiti təmsil etməsindən asılı olmayaraq, bu əsərlərdə irəli sürülən ideyalar, birinci növbədə, azərbaycanlı oxucunun özünü dərk etməsinə, Vətən tarixini, onun milli dəyərlərini öyrənməsinə, mədəni irsə sahib çıxmasına yönəlmişdi".*** Bu baxımdan Hüseyn Cavid Poeziya Gününün keçirilməsinin əhəmiyyəti böyükdür. Bu poeziya bayramı Hüseyn Cavid bədii irsinin öyrənilməsi, eləcə də gənclər arasında təbliğinə geniş imkan yaradıb.

Qeyd olunub ki, 1982-ci ildə Hüseyn Cavidin 100 illik yubileyi Bakıda, 1992-ci ildə 110 illik yubileyi Naxçıvanda, 2002-ci ildə isə 120 illik yubileyi geniş şəkildə qeyd olunub.

*Ardı 3-cü səhifədə*

1981-ci ildə Naxçıvanda, 1995-ci ildə isə Bakıda onun ev-muzeyləri yaradılıb. 1996-cı ilin oktyabrında isə böyük şairin anadan olmasının ildönümündə Hüseyn Cavid məqbərəsi ucaldılıb.

"Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən bu siyasət muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamlarla görkəmli ədib Hüseyn Cavidin 2007-ci ildə 125, 2012-ci ildə isə 130 illik yubileyi geniş şəkildə qeyd edilmişdir", – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri bildirib ki, bununla yanaşı, dahi şairin həyat və yaradıcılığına həsr olunan simpozium və elmi konfranslar keçirilib, sərgilər təşkil edilib, "Naxçıvan" jurnalının bir nömrəsi Hüseyn Cavidə həsr olunub, kütləvi informasiya vasitələrində böyük ədibin ideyaları təbliğ edilib, ev-muzeyinin ekspozisiyası zənginləşdirilib. Mütəfəkkir şairin adının əbədiləşdirilməsi sahəsində də mühüm işlər görülüb. Hazırda Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb Hüseyn Cavidin adını daşıyır. Naxçıvan şəhərində, Şərur, Babək, Culfa və Şahbuz rayonlarında görkəmli ədibin adına küçələr vardır.

Muxtar respublikanın görkəmli şəxsiyyətlərinə, o cümlədən Hüseyn Cavid irsinə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova tədbir iştirakçıları adından dərin minnətdarlığını bildirən Rəhman Məmmədov qeyd edib ki, Hüseyn Cavidin böyük istedadı, sənətkarlığı, öz xalqına mənən bağlılığı yaradıcılığına əbədiyaşarlıq qazandırıb. Buna görə də Hüseyn Cavid kimi işıqlı şəxsiyyətlər həmişə xatırlanacaq, ümummilli lider Heydər Əliyevin dediyi kimi ***"Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək".***

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, xalqımızın bir çox klassik sənətkarları kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin də əsl qiymətini Azərbaycan xalqının XX əsrdə yetirdiyi daha bir dahi, sözün-sənətin böyük bilicisi və hamisi ümummilli liderimiz Heydər Əliyev verib. Ulu öndərimiz onun istər cismən, istərsə də mənən vətəninə, xalqına qaytarılmasında, milli-mənəvi tərəqqi prosesində öz layiqli yerini tutmasında müstəsna rol oynayıb.

Natəvan Qədimova vurğulayıb ki, Azərbaycan xalqının yetirdiyi bu iki dühə – Hüseyn Cavid və Heydər Əliyev bəşər həyatında ədəbiyyatın roluna yüksək qiymət verib, onu insanlığın ərsəyə gətirdiyi ən böyük milli-mənəvi dəyərlər sırasına daxil ediblər. Hüseyn Cavid öz əsərləri ilə insanlara ədalətin və həqiqətin düzgün yolunu göstərib, ulu öndərimiz Heydər Əliyev isə insanları ədalətin və həqiqətin, xalqa və vətənə xidmətin düzgün yolu ilə öz ardınca aparıb.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq Asim Yadigarın "Hüseyn Cavidin həyat və yaradıcılığı", filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlinin "Hüseyn Cavid dramaturgiyası", AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımovun "Hüseyn Cavidin mütərəqqi ideyaları" mövzularında çıxışları olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının tanınmış şairləri – Vaqif Məmmədov, Elbəyi Maqsudov və Həsənalı Eyvazlı söz ustadına həsr olunmuş şeirlərini oxuyublar.

Azərbaycan Respublikasının Xalq artistləri Həsən Ağasoy və Rza Xudiyev, həmçinin Naxçıvan şəhər Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbin şagirdləri dahi şairin şeirlərini bədii qiraət ediblər.

Tədbirə yekun vuran Asim Yadigar Cavid irsinə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib.

Sonda tədbir iştirakçıları Hüseyn Cavidin ev-muzeyi ilə tanış olublar.

✍ **Rauf ƏLİYEV**

## Naxçıvanın müqəddəratı: Moskva və Qars müqavilələrinin təkrar pozulması



Dünya tarixi və elmi əsərlər ötən əsrdə Birinci və İkinci Dünya müharibələri arasındakı zaman kəsiyində imzalanmış iki mühüm əhəmiyyətli Moskva və Qars müqavilələrinin mövcud olmasına baxmayaraq, ədalətsiz mövqedə olmuşlar.

16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars müqavilələri Naxçıvan Muxtar Respublikasının (indiki rəsmi adı) Azərbaycan Respublikasının suveren ərazisinə birləşməsinə şərait yaratmışdır. Türkiyə və Rusiya dövlətləri tərəfindən imzalanmış Moskva müqaviləsinin 3-cü maddəsinə görə, Naxçıvan Azərbaycan Respublikasının himayəsi altında muxtar dövlətdir və sərhədləri 1-ci əlavədə göstərilən şəkildə müəyyən edilmişdir. Müqavilədə həmçinin göstərilmişdir ki, Azərbaycan dövləti Naxçıvanın muxtariyyətinə öz himayəsi altında təminat verir və tarixi ərazilərini başqa xalqlara güzəştə getməyəcəkdir.

**Moskva müqaviləsi,**
**16 mart 1921-ci il**
**Maddə 3.**

Razılığa gələn hər iki tərəf müqavilənin 1-ci (B) əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu himayə haqqını heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir.

**"Əlavə (B)"**

Ararat stansiyası-Saraybulaq dağı (8071)-Gömrülü dağ (8839)-(8930)-(3080)- Sayat dağı (7868)-Qurdqulaq kəndi-Həməsür dağı (8160)-8022 yüksəkliyi-Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi.

Rusiya Sovet Federativ Sosialist Respublikasının iştirakı ilə Qars şəhərində bir tərəfdən Ermənistan, Azərbaycan və Gürcüstan, digər tərəfdən isə Türkiyə Respublikası arasında imzalanmış 1921-ci il 13 oktyabr tarixli müqavilənin 5-ci maddəsinə əsasən, Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin müqavilənin 3-cü əlavəsində göstərilən sərhədlərində Naxçıvan muxtar ərazisinin Azərbaycanın himayəsi altında yaradılması barədə razılığa gəlmişlər.

**Qars müqaviləsi,**
**13 oktyabr 1921-ci il**
**Maddə 5.**

Türkiyə hökuməti, Ermənistan və Azərbaycan Sovet hökumətləri müqavilənin 3 saylı əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar.

**"Əlavə 3. Naxçıvan ərazisi"**

Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-də saxlanılır), sonra düz xətlə qərbi Daşburun dağını (3142), oradan şərqi Daşburun dağını (4108)-Cəhənnəm dərəsi çayını keçərək bulağın (Rövnə) cənubuna çatır, Bağırsaq dağının (6607), yaxud 6587-ci yüksəkliyin suayrıcı xətti ilə davam edərək keçmiş İrəvan qəzalarının inzibati sərhədini, oradan Şərur-Dərələyəz sərhəd xəttini izləyir, 6629-cu yüksəklikdən Kömürlü dağı (6839 və ya 6930) və oradan 3080-ci yüksəkliyə gəlir. Sayat dağı (7868), Qurdqulaq kəndi-Həməsür dağı (8160)-8022-ci yüksəklik-Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhədlərinin şərqi".

Qars müqaviləsi imzalanan zaman Naxçıvanın ərazisi 6.988 kvadratkilometr idi. Sonra Moskvanın Naxçıvan Muxtar Respublikasına aid olan ərazilərini qeyri-qanuni yolla Ermənistana verməsi nəticəsində Naxçıvan ərazisi 5.5 min kvadratkilometr olmuşdur. Nəticədə, beynəlxalq müqavilələr birtərəfli qaydada pozulmuşdur və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının sərhədləri yenidən müəyyənləşdirilmişdir. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin qərarı ilə Naxçıvanın (Qarçıvan, Qurdqulaq, Horadiz, Ağbinə, Ağxaç, Almalı, İtqıran, Sultanbəy və Kilit kəndinin bir hissəsi), ümumən, 657 kvadratkilometr ərazisi Ermənistana verildi. 1962, 1965 və 1967-ci illərdə



Search Results for: nakhchivan
Subscribe to Eurasia Review by Email
The Fate Of Nakhchivan: Repeated Violations Of Moscow And Kars Treaties – OpEd
World history and its scholarly work has been unfairly merciless in maintaining a long silence towards two of the most important treaties that have taken place in the interwar period of the last century. Those are the Treaties of Moscow and Kars. The Treaties of Moscow (March 16, 1921) and Kars (October 13, 1921) made ... Continue reading →
SEARCH EURASIA REVIEW


çap edilmiş regional xəritələr Ermənistan tərəfindən saxtalaşdırılıb. Urmiyadan Arazdəyənə qədər qırmızı kərpiclə olan sərhəd xətti tədricən Naxçıvan Muxtar Respublikasının Sədərək kəndinə yaxınlaşdırılmış və 400 hektardan çox ərazi qanunsuz olaraq Ermənistan ərazisinə birləşdirilmişdir. 19 yanvar 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Kərki kəndi erməni-rus silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Moskva və Qars müqavilələri bu günə qədər qüvvədə olsa da, Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisinin işğal olunması beynəlxalq hüquq, beynəlxalq müqavilələr haqqında qanuna dair 1969-cu il Vyana Konvensiyası, Beynəlxalq hüquq prinsipləri üzrə 1970-ci il Bəyannaməsi və 1975-ci il Helsinki Yekun Aktına ziddir.

Etibarlı tarixi mənbələr təsdiq edir ki, Ermənistan hakimiyyəti həmişə Naxçıvan Muxtar Respublikasını nəzarət altında saxlamağa və son nəticədə, Naxçıvanı Azərbaycandan ayırmağa cəhd etmişdir. 28 oktyabr 1920-ci ildə Azərbaycan hökumətinin heç bir iştirakı olmadan Sovet Rusiyası və daşnak Ermənistan arasında imzalanmış müqaviləyə əsasən, Zəngəzur və Naxçıvan əraziləri Ermənistana güzəştə gedilmişdir. 29 noyabr 1920-ci ildə Ermənistanda bolşevik hakimiyyəti qurulduqdan sonra ermənilər Naxçıvan və Zəngəzur ərazisini özlərinə tabe etmək istəyirdi. Naxçıvan və Zəngəzurun mülki əhalisi bu qərara qarşı kütləvi etiraz aksiyaları təşkil etdilər və Türkiyə nümayəndələri də bu qərara qarşı çıxdı. Ermənilər gördülər ki, Naxçıvan əhalisinin qarşısında durmaq çətindir. 28 dekabr 1920-ci ildə Yerevan Naxçıvanı müstəqil Sovet Respublikası kimi tanımaq qərarına gəldi. Moskva isə müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq və Türkiyə tərəfinin təklifini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını təyinetmə hüququnu tanımaq məcburiyyətində qaldı. Digər tərəfdən Naxçıvanı Azərbaycandan ayıran Zəngəzur mahalı qanunsuz olaraq bolşeviklər tərəfindən Ermənistana verildi. Bu cür qanunsuz qərardan sonra Naxçıvan Muxtar Respublikası Azərbaycandan ayrı düşdü. Erməni rejimi isə Naxçıvanı işğal etməyə cəhd edirdi.

1921-ci il yanvarın 1-də Naxçıvanda rəy sorğusu keçirildi və Naxçıvan əhalisinin 90 faizi Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyəti lehinə səs verdi. Behbud ağa Şahtaxtinski Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət verilməsi üçün çox çalışırdı. 1 mart 1921-ci ildə Şahtaxtinski V.İ.Leninə teleqraf göndərərək Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı, Dağıstan və Şimali Qafqaz vilayətlərinin müsəlman əhalisinin milli tərkibi, həmçinin Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcək taleyi və bu ərazilərin etnik strukturu və coğrafiyası barədə onu məlumatlandırmışdı. V.İ.Lenin onun təklifləri ilə maraqlanmış və Mərkəzi Komitənin Siyasi Bürosuna bu məsələləri müzakirə etmək əmri vermişdir. Həmin vaxt türk nümayəndələri müqavilə imzalamaq məqsədilə Moskvada səfərdə idi. Tərəflər 26 fevral 1920-ci il tarixdə danışıqlara başlamış və 16 mart tarixdə hər iki tərəfin iştirakı ilə Moskva müqaviləsi imzalanmışdır. Həmin gün Siyasi Büro Behbud ağa Şahtaxtinskinin təkliflərini təsdiq edərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikası yaratmaq üçün qərar qəbul etdi. Moskva müqaviləsinin 3-cü maddəsinə əsasən, Azərbaycanın tərkibində Naxçıvana muxtariyyət verildi. Moskva müqaviləsi böyük tarixi əhəmiyyətə malikdir. İlk olaraq bu müqavilə iki ölkə arasında ittifaq quraraq Türkiyə və Rusiya arasında mübahisəli məsələləri həll etdi, həmçinin Azərbaycanın ərazi bütövlüyünü qoruyaraq Naxçıvan ərazisinin status məsələsinə həmişəlik olaraq aydınlıq gətirdi. Sovet Rusiyası və Türkiyə arasında olan Moskva müqaviləsi eyni zamanda Cənubi Qafqaz respublikaları arasında olan mübahisəli məsələləri də həll etdi. Bu razılaşmadan sonra Moskva istəyirdi ki, Türkiyə tərəfi digər Cənubi Qafqaz respublikaları ilə ikitərəfli saziş imzalasın. Lakin Türkiyə tərəfi bu ölkələrlə ayrı-ayrı müqavilə imzalamaq istəyirdi. Bəzi diplomatik danışıqlardan sonra bütün tərəflər razılaşdılar ki, Rusiyanın iştirakı ilə 26 sentyabr 1921-ci ildə birgə konfrans keçirsinlər. 13 oktyabr 1921-ci ildə Rusiyanın iştirakı ilə Türkiyə və Cənubi Qafqaz ölkələri arasında Qars müqaviləsi imzalandı. Müqavilə 20 maddə və 3 əlavədən ibarətdir. Müqavilənin 5-ci maddəsi Naxçıvanın taleyini müəyyən etdi. Bu müqavilədə Naxçıvan Azərbaycanın tərkibində muxtar respublikadır. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsi Naxçıvanın muxtariyyətini müəyyənləşdirib. Müqaviləni imzalayan tərəflər isə Türkiyə, Azərbaycan və Ermənistandır.

Moskva və Qars müqavilələri nəticəsində Naxçıvan ərazisinin statusu həll olunub və beynəlxalq qanunlar tərəfindən tanınır. Qars müqaviləsi müddətsiz imzalanıb və imzalayan tərəflər birtərəfli olaraq bu müqaviləni ləğv edə bilməz.

Dünya xalqlarının əksəriyyəti 27 ildir ki, Azərbaycanın suveren ərazisində baş verən Dağlıq Qarabağ məsələsinə xüsusi diqqət yetirirlər. Lakin bu xalqların rəhbərləri unudurlar ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası faciəvi şəkildə ərazilərinin itirilməsindən, yerli əhali isə Yerevandakı erməni rejimi tərəfindən buraya tətbiq olunan blokada nəticəsində yaranan iqtisadi çətinliklərdən əziyyət çəkirlər. Biz unutmamalıyıq ki, Naxçıvan bəşəriyyət sivilizasiyasının beşiyidir və bu ərazi dünya ictimaiyyətinin xüsusi diqqətinə layiqdir.

**Peter TASE**
**23.10.2015**
**Amerika Birləşmiş Ştatlarının "Eurasiareview" qəzeti**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində növbəti açıq ürək əməliyyatları aparılıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili davam etdirilir. Artıq bu ilin 9 ayı ərzində yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 347 cərrahi əməliyyat, o cümlədən 96 nəfər xəstədə açıq ürək, 82 nəfər xəstədə göz və 153 nəfər xəstədə digər müxtəlif əməliyyatlar aparılıb, 16 nəfər xəstənin ürək damarlarına stent qoyulub. Bu sahədə Azərbaycan Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanası ilə qarşılıqlı əməkdaşlıq artıq ənənə halını alıb. Heyət əvvəllər Naxçıvana müəyyən vaxt ərzində gəlirdisə, indi açıq ürək əməliyyatına zərurət yarandıqda dəvət olunur.

Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin müdiri, ürək və damar cərrahı Rəşad Mahmudovun rəhbərlik etdiyi 10 nəfərlik heyət bu il səkkizinci dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə dəvət olunub. Cərrah, anestezioloq və əməliyyat tibb bacıları ilə təmsil olunan heyət əvvəlcədən qeydiyyata götürülmüş risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirib, kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr, 10 nəfər üzərində açıq ürək, 1 nəfərdə isə periferik damar əməliyyatı aparılmasına göstəriş verib.

Oktyabrın 22-dən başlayaraq xəstələr üzərində açıq ürək – aortakoronar şuntlama, qulaqcıqlararası qüsurun aradan qaldırılması, süni qapaqcıqların qoyulması, Fallo tetradası, botal axacağın bağlanması kimi mürəkkəb əməliyyatlar aparılıb. 11 aylıq uşaq üzərində mürəkkəb əməliyyat icra olunub, ürəyin çəpərlərarası qüsuru aradan qaldırılıb.

Heyət xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırır, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələrini diqqət mərkəzində saxlayır. Həmişə olduğu kimi, cərrahi əməliyyatlarda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimləri ilə yanaşı, əməliyyat, reanimasiya, palata tibb bacıları da yaxından iştirak ediblər. Heyət dünən öz işini başa vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



*Azərbaycan artıq 24 ildir ki, müstəqil dövlətdir. Bu illərin çətinliklərinə, ağır proseslərinə baxmayaraq, dövlətimiz bu yurdun tarixi keçmişinin çox dəyərli səhifələrini qısa bir müddətdə açır, xalqa nümayiş etdirir. Bütün bunlar həm də ona görə edilir ki, hər bir insan və xüsusən gənc nəsil mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən dərk etsin. Elə bütün oğuz-türk xalqlarının ulusu olan Dədə Qorqudun öyrənilməsi, onun adıyla adlanan dastanın hər kəs tərəfindən sevilib dünyaya çatdırılması kimi.*

# Dədə Qorqud meydanı

"Kitabi-Dədə Qorqud" bizim hamımızda böyük iftixar hissi yaradır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə, Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik. Bu gün bayram mərasimləri ən zirvə nöqtəsinə çatdı. Amma bizim "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, təbliğ, tədqiq olunması işimiz bununla bitmir. Bu, bizim işimizin ancaq başlanğıcıdır. Son üç ildə görülən işləri mən çox yüksək qiymətləndirirəm və bu münasibətlə yaranmış dövlət komissiyasının üzvlərinə və "Kitabi-Dədə Qorqud" yubileyinin hazırlanması dövründə fəaliyyət göstərmiş hər bir vətəndaşımıza, alimlərimizə, ziyalılarımıza, yazıçılarımıza, incəsənət, mədəniyyət xadimlərimizə dərin təşəkkürümü bildirirəm".

Bu fikirlər 2000-ci ilin aprel ayının 9-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş rəsmi qəbulda ümummilli liderimiz Heydər Əliyev tərəfindən səsləndirilib. Xatırladaq ki, ulu öndərin bu çıxışından təxminən üç il əvvəl–1997-ci il aprelin 20-də imzaladığı "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında Fərmanı, yubileyi ən yüksək səviyyədə keçirmək məqsədilə komissiyanın yaradılması milli-mənəvi irsin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması sahəsində olduqca əlamətdar hadisə idi. Bu tədbirlərə YUNESKO nümayəndələri də biganə yanaşmayıb və 2000-ci ildə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar YUNESKO çərçivəsində Drezdendə, Moskvada, Türkiyənin müxtəlif şəhərlərində yubiley tədbirləri təşkil olunmuşdu.

Yuxarıda adıçəkilən fərmanın həyata keçirilməsi istiqamətində nəzərdə tutulmuş tədbirlər planına əsasən, görülən işlərdən biri də 1999-cu ildə qədim oğuz yurdu olan Naxçıvanda Dədə Qorqudun əzəmətli abidəsinin ucaldılmasıdır. "Təbriz" mehmanxanasının önündə qoyulmuş abidənin müəllifi Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərov idi. Hündürlüyü 5,3 metr olan heykəldə qopuz tutmuş Dədə Qorqud təsvir olunmuşdu. Abidənin qoyulduğu ərazi isə Dədə Qorqud meydanı adlandırıldı.

Naxçıvan şəhərindəki bu abidənin yerləşdiyi meydan son illər yenidən qurulub, əraziyə yeni görkəm verilib. Yaşıllıq zolaqları, gülkarlıqlar yaradılıb, rahat oturacaqlar qoyulub.

Ulu Dədə Qorqudun adını daşıyan meydan bu gün naxçıvanlıların, muxtar respublikamızın qonaqlarının ən çox üz tutduqları istirahət guşələrindən biridir. Şəhərimizin mərkəzində yerləşən – Heydər Əliyev prospekti ilə "Təbriz" küçəsinin kəsişdiyi bu ərazi öz füsunkarlığı ilə göz oxşayır. Doğma diyarımızda həyata keçirilən quruculuq tədbirlərinə xas olan spesifik xüsusiyyətləri burada ilk anda görmək olar. Yəni qədimliklə müasirliyin vəhdəti burada da qorunub. Bir tərəfdə Təbriz mehmanxanası. Bütün müasir tələblərə cavab verən, şəhərimizin hər yerindən görünən, yüksək səviyyədə xidmət göstərilən bu mehmanxana bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu tədbirlərdə iştirak edən qonaqlar buradakı xidmətdən razılıqlarını bildiriblər. Bir tərəfdə isə ulu tariximizin canlı yadigarı – XVIII əsr Şərq memarlığının incilərindən biri olan "İsmayılxan hamamı" adlanan tarixi-memarlıq abidəsi yüksək zövqlə, ilkinliyi tamamilə saxlanılmaqla bərpa olunub.

Bu meydanda görülən işlərin ən əhəmiyyətlisi isə "Dədə Qorqud" abidəsinin yenidən işlənməsidir. İndi abidə daha əzəmətli, daha möhtəşəm görkəm alıb. Ümumilikdə, burada görülən işlər tariximizə göstərilən hörmət və ehtiramın ifadəsidir.

✍ **Səbuhi HÜSEYNOV**

# Müharibə veteranının 90 yaşı qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq olunan "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq, müharibə veteranlarının yubileyləri keçirilir.***

Oktyabrın 23-də Culfa Rayon Xanəgah kənd sakini, müharibə veteranı Vəli Qasımovun 90 yaşının tamam olması münasibətilə tədbir keçirilib.

Tədbirdə iştirak edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər. Vurğulanıb ki, müharibə veteranlarının minik avtomobilləri, texniki bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunması, sanatoriya və pansionatlara müalicəyə göndərilmələri onlara göstərilən qayğının əyani ifadəsidir. Hər ay onlara Prezident təqaüdü ödənilir, müharibə veteranlarının yaşayış yerlərində abadlıq işləri aparılır. Bütün bunlar onların sosial rifahının yüksəlməsinə xidmət edir.

Vəli Qasımov ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

# Maliyyə savadlılığı və ailə büdcəsinin formalaşdırılması ilə bağlı treninq



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən muxtar respublikanın ali təhsil müəssisələrinin müvafiq ixtisaslarında təhsil alan tələbələrin iştirakı ilə treninqlər keçirilir.***

Növbəti belə tədbir "Naxçıvan" Universitetinin bank işi kabinəsində keçirilib. Tədbirdə maliyyə savadlılığı, ailə büdcəsinin formalaşdırılması və idarə olunmasının əhəmiyyətindən söz açılıb.

Treninqdə çıxış edən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Elçin Əliyev deyib ki, cəmiyyətin hər bir üzvü məhz özünün maliyyə savadı əsasında maliyyə resurslarını idarə edir, pul bazarının iştirakçısına çevrilir. Hazırda inkişaf səviyyəsindən asılı olmayaraq, bütün iqtisadiyyatlarda əhalinin daha optimal və planlaşdırılmış istehlak yönümlü fəaliyyəti təqdir olunur. Ümumiyyətlə, rasional miqyaslarda istehlakın artımı makroiqtisadi inkişaf və iqtisadi artımın stimullaşdırılması baxımından əhəmiyyətlidir. Bununla belə, istehlak ehtiyacları üçün bank xidmətlərindən istifadə zamanı əhali tərəfindən xərclərin düzgün planlaşdırılması və mövcud sərbəst vasitələrdən daha səmərəli istifadə edilməsi onların artıq borclanması üçün mühüm amildir. Tələbələrlə maliyyə savadlılığının artırılması sahəsində keçirilən tədbirlərin əsas məqsədi onlarda gəlirlərdən daha səmərəli istifadə, xərclərin optimal bölüşdürülməsi, bank xidmətlərindən istifadə zamanı düzgün qərarların verilməsi, həmçinin sərbəst vəsaitlərin gəlirli sahələrə investisiya edilməsi kimi vərdiş və bacarıqların formalaşdırılmasından ibarətdir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşlarından Tural Şirəlizadənin, Hafiz İsmayılbəylinin çıxışları da tələbələr tərəfindən maraqla qarşılanıb. Çıxışlarda qeyd edilib ki, ailə büdcəsi ailənin iqtisadi durumunun, həyat səviyyəsinin göstəricisidir, ailə üzvlərinin tələbatlarının ödənilməsinin əsas mənbəyidir. Bütün bunlar ailə büdcəsinin formalaşdırılmasını və səmərəli istifadə edilməsini şərtləndirir. Ailə büdcəsi gündəlik, həftəlik, aylıq və illik büdcə qaydası ilə formalaşdırılır və istifadə olunur. Bu gün muxtar respublikamızda yaşayan ailələrin böyük bir qismində ailə büdcəsi planlaşdırmasından xəbərsiz olması və ya buna az maraq göstərməsi ailə gəlirlərinin səmərəliliyini aşağı salır. Bu mənada, ailə büdcəsi çox vacibdir.

Bildirilib ki, əgər ailədə büdcə planlaşdırılmırsa, gəlirlər kortəbii şəkildə xərclərə yönəldilirsə, qənaət yoxdursa, ərzaq və qeyri-ərzaq məhsullarının alınmasında israfçılığa yol verilirsə, gəlir çox olsa belə, ailənin xərclərinin qarşısını almaq mümkün olmayacaq. Bu isə ailələrin borclanmasına və ya qarşılaşdığı hər hansı maddi çətinlikdə kredit üçün banklara müraciət etməsinə gətirib çıxarır. Son statistik məlumatlara əsasən, əhali gəlirlərinin, təxminən, 20 faizə qədərini borclanma təşkil edir. Əhalinin müəyyən təbəqəsi qarşılaşdığı hər kiçik maddi problemlə bağlı istehlak krediti almaq üçün banklara üz tutur. Məhz bunun nəticəsidir ki, son vaxtlar istehlak kreditlərinin kredit portfelindəki payı 40 faizə qədər yüksəlib. Mənfi cəhətlərdən biri də ondan ibarətdir ki, ailələrin böyük bir qismi götürdükləri kreditləri öz gəlirlərinə daxil edirlər. Bu cür yanlış yönləndirmə gələcək aylar ərzində ailələrin xərclərinin artımında özünü büruzə verir. Belə ki, alınmış kreditlər, sadəcə, istifadə edildiyi başlanğıc anında ailə daxilində istehlakı canlandırır. Növbəti ayda kredit üzrə geri ödənişlər başlandığı andan etibarən isə ailədaxili xərcləri artırır və alıcılıq qabiliyyətini aşağı salır. Bu baxımdan ailə büdcəsini planlaşdırmaq, ailə üzvlərinin əldə etdiyi gəlirlər və edilən xərcləri müəyyənləşdirmək, bu prosesi hər ay mütəmadi şəkildə davam etdirməklə ailələr qarşılaşa biləcəkləri maddi problemlərin öhdəsindən gələ bilər və əsassız borclanmalara yol verməzlər.

Sonra tədbir iştirakçıları arasında mövzu ilə bağlı anket sorğusu aparılıb. Onlara ailə büdcəsinin formalaşdırılması ilə bağlı bukletlər paylanılıb.

**Xəbərlər şöbəsi**

# Aşura günü Naxçıvanda qanvermə aksiyaları keçirilib

***Hicri-qəməri təqvimi ilə Məhərrəm ayının 10-u bəzi tarixi səbəblərlə bağlı müsəlmanların bir qismi tərəfindən matəm günü kimi qeyd edilir. Bəzi qatı dindarlar bu gündə özlərinə xətər yetirməyi, bədənlərindən qan çıxarmağı mənəvi borc hesab edirlər.***

Halbuki bu günün xüsusi özəlliklərindən biri də köməksizə arxa olmaq, yardım etməkdir. Bu baxımdan artıq bir neçə ildir ki, ölkəmizdə Aşura günü qanvermə aksiyalarının keçirilməsi təqdirəlayiq haldır. Bu yolla həm dindarların bədənindən qan çıxarmaq arzusu sivil qaydada reallaşır, həm də dindarlar verdikləri qanla qana ehtiyacı olan xəstələrin həyatını xilas edir, savab qazanırlar.

Son bir neçə ildə olduğu kimi, bu il də həm Naxçıvan şəhərində, həm də ayrı-ayrı rayonlarda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin təşkilatçılığı ilə Aşura günü qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilmişdir.

Oktyabrın 24-də keçirilən Aşura mərasimlərində günorta saatlarınadək Naxçıvan Muxtar Respublika Xəstəxanasının 2 briqadası Naxçıvan şəhərindəki Heydər məscidində 59 nəfərdən, Diaqnostika-Müalicə Mərkəzinin briqadası Pirqəmiş məscidində 60 nəfərdən, Doğum Mərkəzinin 2 briqadası Came məscidində 68 nəfərdən qan götürmüşdür. Şərur rayonunda 80, Babək rayonunda 53, Şahbuz rayonunda 36, Kəngərli rayonunda 149, Culfa rayonunda 60, Ordubad rayonunda 43, Sədərək rayonunda 17, bütövlükdə, muxtar respublika üzrə 625 nəfərdən 187,8 litr qan tədarük olunmuşdur. Məscidlərdə qanvermə aksiyaları axşam saatlarınadək davam etmiş, dindarlar sivil qaydada, könüllü olaraq qan vermişlər. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilmişdir. Bir neçə saat davam edən aksiyada donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək birli və ikili torbalarda qan bankına təhvil verilmişdir. Beləliklə, qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılmışdır. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır. Tədarük olunan qan və qandan hazırlanmış preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan bütün digər xəstələrin müalicəsində istifadə olunacaq.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 803